## AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ

**Ə M R**

**№** 25

**Bakı şəhəri** „16" 04. 2018 **il**

**"Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2018-ci il tarixli, 3723 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrasının təmin edilməsi, eyni zamanda dağınıq skleroz xəstəliyindən əziyyət çəkən xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması, keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər planında nəzərdə tutulan icraçı qurumların rəhbərlərinə tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulan işlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və nəticəsi barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.

3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişində "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikasıvə onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərə alınması təmin edilsin.

4.Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 16.04.2018-ci il 25 nömrəli əmri ilə təsdiq edilmişdir.

**"Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər planı**

| Sıra №-si | Tədbirlərin adı | Görüləcək işlər | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|
| **1. Dövlət Proqramının həyata keçirilməsi üzrə təşkilati tədbirlər** | | | | |
| 1.1. | Dağınıq skleroz xəstəliyinə düçar olmuş şəxslərin vahid elektron registrdə və məlumat bazasında qeydiyyatının davam etdirilməsi | Dağınıq skleroz xəstəliyinə düçar olmuş şəxslərin vahid elektron registrin təkmilləşdirilməsi | Səhiyyənin İnformasiyalaşdırma Mərkəzi<br><br>Akademik M.Mirqasmov ad. Respublika Klinik Xəstəxanası Nevroloji Mərkəz | 2018 |
| | | Elektron məlumat bazasında Dağınıq skleroz xəstəliyinə düçar olmuş şəxslərin qeydiyyatının davam etdirilməsi | Akademik M.Mirqasmov ad. Respublika Klinik Xəstəxanası Nevroloji Mərkəz | Mütəmadi |
| **2. Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2.1. | Dağınıq skleroz xəstə-liyinin diaqnostikası işinin yaxşılaşdırılması məqsədilə tibb müəssisələrinin maqnit-rezonans tomoqrafiya aparatları ilə təchiz edilməsi: | Şirvan Şəhər Mərkəzi Xəstəxanasında MRT aparatının quraşdırıl-ması; | İnnovasiya və Təchizat Mərkəzi | 2018-2019 |
| | | Quba Rayon Mərkəzi Xəstəxanasında MRT aparatının quraşdırıl-ması; | | 2019 |

| | | | | |
|---|---|---|---|---|
| 2..2 | Dağınıq skleroz xəstəliyinin müalicəsinin səmərəliliyinin artırılması məqsədilə tibb müəssisələrinin plazmaferez aparatı ilə təchiz edilməsi | Akademik M.Mirqasmov adına Respublika Klinik Xəstəxanasında plazmafarez aparatının quraşdırılması | İnnovasiya və Təchizat Mərkəzi | 2018 |
| | | Kliniki Tibbi Mərkəz də (Bakı şəhəri) plazmafarez aparatının quraşdırılması | | 2019 |
| | | 3 nömrəli Şəhər Klinik Xəstəxanasında (Bakı şəhəri) plazmafarez aparatının quraşdırılması | | 2020 |
| 2.3. | Dağınıq skleroz xəstəliyinin mərhələsinin müəyyənləşdirilməsi məqsədilə tibb müəssisələrinin zəruri laboratoriya avadanlığı ilə və reaktivlərlə təmin edilməsi | Dağınıq skleroz xəstəliyinin mərhə-ləsinin müəyyənləş-dirilməsi məqsədilə tibb müəssisələrinin zəruri laboratoriya avadanlığı ilə və reaktivlərlə təmin edilməsi üçün sifarişlərin hazırlanması | Akademik M.Mirqasmov ad. Respublika Klinik Xəstəxa-nası Nevroloji Mərkəz | 2018-2022 |
| | | Sifarişlər əsasında Nevroloji Mərkəzi laboratoriya avadanlığı ilə və reaktivlərlə təmin edilməsi | İnnovasiya və Təchizat Mərkəzi | Mütəmadi |

| | | | | |
|---|---|---|---|---|
| | **3. Dağınıq skleroz xəstəliyinin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | |
| 3.1. | Dağınıq sklerozlu xəstələrin zəruri dərman preparatları ilə davamlı təmin edilməsi | Dağınıq skleroz xəstəliyinin mərhələsinin müəyyənləşdirilməsi məqsədilə tibb müəssisələrinin zəruri laboratoriya avadanlığı ilə və reaktivlərlə təmin edilməsi sifarişlərin hazırlanması | Akademik M.Mirqasmov ad. Respublika Klinik Xəstəxanası Nevroloji Mərkəz | mütəmadi |
| | | Sifarişlər əsasında Nevroloji Mərkəzi laboratoriya avadanlığı ilə və reaktivlərlə təmin edilməsi | İnnovasiya və Təchizat Mərkəzi | |
| 3.2. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Akademik M.Mirqasmov ad. Respublika Klinik Xəstəxanası Nevroloji Mərkəz | 2019 |
| 3.3. | Dağınıq skleroza düçar olmuş xəstələr üçün sanator-kurort və bərpa müalicəsinin təşkili | Dağınıq skleroza düçar olmuş xəstələrə sanator-kurort və bərpa müalicəsinin aparılması üçün göndərişlərin verilməsi | Tibb müəssisələri | Mütəmadi |
| | | **4. Kadr hazırlığı** | | |
| 4.1. | Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin peşə biliklərinin artırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi | Təkmilləşdirmə kurslarının Təqvim planlarına Dağınıq skleroz xəstəliyinin diaqnostikası və müalicəsi üzrə kursların daxıl edilməsi | Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu | 2018-2022 |